

Carçı

AtəşgahSığorta

2011-ci ildən

№65

Xüsusi buraxılış/2023

Carçı

# MÜNDƏRİCAT

№ 65

XÜSUSİ BURAXILIŞ/ 2023




**Birlikdə böyüdük, Birlikdə uğur qazandıq!**

səh. 3

AtəşgahSığorta

Siz də jurnalımızın müəllifi və ya aktiv üzvü ola bilərsiniz. Özünüzü yeni sahədə sınayın!

Biz yeni fikir və təkliflərə açığıq.

İstək və təkliflərinizi elektron ünvanımıza göndərin:

**pr@ateshgah.com**

Hazırki nüsxədə əməyi keçənlər:

L. Əsədova
R. Axundzadə
S. Məmmədova
V. İsmayılova
S. Quliyeva

Birlikdə böyüdük, Birlikdə uğur qazandıq!
səh. 03

27 illiyimizdən bizə qalan xatirələr...
səh. 05

Secret Santa
səh. 06

Yeni il hədiyyələri
səh. 07

Mühüm əməkdaşlar ilə görüş
səh. 08

Peşəkar Sığortaçı Sertifikasiyası
səh. 09

28 dekabr "Vəkil Günü" peşə bayramı ərəfəsində Vəkillər Kollegiyasının təntənəli iclası keçirilib
səh. 10

Maraqlı faktlar
səh. 11

# Birlikdə böyüdük, Birlikdə uğur qazandıq!



18 dekabr 2023-cü il tarixində 1996-cı ildən bəri fəaliyyət göstərən "Atəşgah" Sığorta Şirkətinin yaranmasının 27-ci ildönümü qeyd olundu!
Şirkətin rəhbər üzvləri, eləcə də, əməkdaşlarının iştirakı ilə baş tutan tədbir "Atəşgah" Sığorta Şirkətinin Direktorlar Şurasının Sədri Ruslan Əliyevin çıxışı ilə başlayıb. O, şirkətin son illərdəki göstəricilərinin yüksələn dinamika ilə inkişaf etdiyindən məmnuniyyət və minnətdarlıq hissi ilə bəhs edib .

Ardıyca şirkətin müxtəlif şöbələrindən olan rəhbərlər və əməkdaşlar çıxışlar etmiş, uzun illər çalışdıqları və artıq ikinci evlərinə, doğman məkana çevrilmiş "Atəşgah" Sığorta Şirkəti ilə bağlı xoş təəssüratlarını və diləklərini dilə gətirmişdilər.

Şirkətin ən xoş ənənələrindən birinin bu əlamətdar gündə keçirilməsi ilə 27 illik tədbir daha da gözəlləşdi.

Belə ki, ənənəvi olaraq əməkdaşların şirkətdə 5 və 10 illik fasiləsiz əmək fəaliyyətinə görə gümüş və qızıl yaxa nişanları, eləcə də, təltifnamələrlə mükafatlandırılma mərasimi baş tutdu.

Qeyd edək ki, baş ofisdən kənarda, habelə regionlarda yerləşən ofis və nümayəndəliklərdə  çalışan əməkdaşların mükafatları da onlara çatdırıldı.

27-ci yaş gününün həyəcanı yalnız şirkət daxilində deyil, həmçinin ictimai müstəvidə geniş vüsət aldı. Belə ki, "Atəşgah" Sığorta Şirkəti olaraq 27-ci ilimizi qeyd etməyin sevincini xalqımızla paylaşmaq üçün KASKO sığorta üçün 27% endirim təklif etdik.









Əlbəttə ki, heç bir yaş günü tortsuz keçmir. 27-ci yaş gününü hər zaman şirin xatirə kimi anmaq üçün bu günə özəl tort sifariş olunmuşdu. Bu günün təntənəsi yalnız baş ofisdə deyil, eyni zamanda region ofislərində də qeyd olunsun deyə tort ziyafəti bütün əməkdaşlarımıza çatacaq şəkildə təşkil olundu.






"Atəşgah" Sığorta Şirkətinin 27-ci yaş günü münasibətilə "Atəşgah Həyat" Sığorta Şirkətinin Direktorlar Şurasının sədri İntiqam Hüseynov şirkətin yaranma tarixi, inkişaf mərhələləri və nailiyyətləri haqqında maraqlı faktlar və məlumatlarla zəngin olan "Atəşgahın tarixi" adlı təlim keçmişdir.





# 27 illiyimizdən bizə qalan xatirələr...



Şirkətin 27-ci yaş günündən yaddaqalan xatirələr toplamaq məqsədilə Marketinq və İctimaiyyətlə Əlaqələr şöbəsinin təşəbbüsü ilə videoçarx hazırlandı.

Belə ki, videoda şirkətin İdarə Heyəti üzvlərinin süjetli çıxışı yer alır.



Böyük məmnuniyyət hissi ilə Şəki ofisinin əməkdaşı Yusif Abbasovun şirkətin 27 illiyi münasibətilə qələmə aldığı şeiri sizinlə paylaşırıq:

«Ömür baharının 27-ci anı»
Heç bilirsən necə xoşdur səni görmək,
27 illik ömrün baharında?!..
Yolun açıq yürüyəsən inam dolu 100 illiyin axarında
Toplaşdırdın bu ailənin hər üzvün bir arada,
qızındırdın alovunda, ocağında
Cəmiyyətə bir örnəksən, bizə əziz, bizə doğma
Yüz yaşında cavan görün,... Heç qocalma....
Arzu edək gələcəyin büllür kimi parlaq olsun
Zirvələrin “Bazardüzü”, “Şahdağ” olsun, “Yaylaq” olsun
Şanlı zəfər meydanların oylaq olsun,
Yaylağında igidlərin at belində sinə gəlsin
Oylağında rəqiblərin birər-birər ələklənsin...
İnam dolu sabahlara yürüyərək güc alasan
Sonsuz sayda uğurlardan səmalara ucalasan,
Dostlar baxıb fərəhlənsin, düşmən yansın...
Qoy atəşin Qarabağda, Naxçıvanda alovlansın,
El-obada xürrəm olan bayraqların dalğalansın...

(Y.Abbasov 18.12.23)

# Yeni il hədiyyələri



2023-cü ili bitirdiyimiz bu dönəmdə, hər il olduğu kimi bu il də öz adətimizə sadiq qalaraq müştərilərimizi unutmadıq və bizə güvənən, loyal müştərilərimizə onların qəlblərini isidə biləcək bir hədiyyə bağışladıq. Hədiyyələrimiz isə üç şəkildə çeşidlənmişdir: Premium, VİP və Standart. Premium hədiyyəmiz, şirkətimizin də adını daşıdığı Atəşgah məbədi rəsm edilmiş çərçivə idi. Standart hədiyyələrimizin daxilində: qeyd dəftəri, qələm, 2024-cü il təqvimi və eko çanta yerləşdirilmişdi. Özəl olaraq haqqında danışmaq istədiyimiz VİP hədiyyədə isə Azərbaycan qadının öz əl əməyi ilə toxuduğu corab, fincan, xüsusi hazırlanmış şirniyyatlar,şam ağacı üçün oyuncaq var idi.




Əsas özəllik isə ondan ibarətdir ki, corablar qeyd etdiyimiz kimi Azərbaycanın müxtəlif bölgələrindən qadınlarımızın əl əməyi və sevgisi ilə toxunmuşdur . Hədiyyənin hansı bölgədən və kimin əməyinin bəhrəsi olduğunu bilmək üçün corablara etiketlərdə linklər yerləşdirdik. Qeyd olunmuş linklərə daxil olan müştərilər corabı toxuyan qadının həyat hekayəsi ilə tanış ola bilərdilər. Əmək, sevgi və düşüncənin nəticəsi olan bu hədiyyələr müştərilər tərəfindən çox xoş qarşılandı. Təbii ki bu hədiyyələrin ərsəyə gəlməsində əməyi olan hər bir şəxsə də öz minnətdarlığımızı bildiririk.





# Mühüm əməkdaşlar ilə görüş

Hər zaman işinə peşəkar yanaşan, fəallığı ilə fərqlənən loyal əməkdaşlara xüsusi diqqət göstərən Direktorlar Şurasının sədri Ruslan Allahverdi oğlu Əliyevin iştirakı ilə 15.12.2023-cü il tarixində “Atəşgah” SŞ və “Atəşgah Həyat” SŞ-ninühüm əməkdaşları ilə görüş baş tutub.

Belə ki, görüş zamanı Ruslan Əliyev çıxış edərək görüşdə xüsusi dəvətlə iştirak edən əməkdaşlara şirkətin il sonu nəticələri üçün təşəkkürünü bildirdi. O, həmçinin növbəti illər üçün olan hədəflərindən bəhs edərək əməkdaşları yüksəlməkdə olan yığım göstəriciləri ilə motivasiya etdi.





Görüş canlı musiqi ilə müşayiət olunurdu və əməkdaşlar üçün xüsusi şirniyyat süfrəsi açılmışdı.





# Peşəkar Sığortaçı Sertifikasiyası

**Şəms Abdullzadə** - ARPA-nın təşkil etdiyi PSS (Peşəkar Sığortaçı Sertifikasiyası) imtahanının PSS.1.2. sığorta işi

**Nurlan Xəlilov** - ARPA-nın təşkil etdiyi PSS (Peşəkar Sığortaçı Sertifikasiyası) imtahanının PSS.1.2. sığorta işi

**Aysel İsmayilova** - CII ( Insurance Underwriting process )

**Lamiə Əkbərova** – Cİİ EXAM PART ONE ESSENTİAL OF İNTERNAL AUDİTİNG









# 28 dekabr “Vəkil Günü” peşə bayramı ərəfəsində Vəkillər Kollegiyasının təntənəli iclası keçirilib





Tədbirdə Vəkillər Kollegiyasının rəhbərliyi ilə yanaşı, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Milli Məclis sədrinin I müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Baş prokurorun müavini Heydər Məmmədov, Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə, Polis Akademiyasının rəisi Canpolad Daanov, ADA Universitetinin hüquq fakültəsinin dekanı Rəşad İbadov da daxil olmaqla, bir sıra təhsil müəssisəsinin nümayəndələri, vəkil qurumlarının rəhbərləri, hüquq müdafiəçiləri və KİV nümayəndələri iştirak edib.



Bu tədbirdə vəkilliyə qəbulla bağlı ixtisas imtahanlarını və icbari təlimi uğurla başa vurmuş 44 namizəd vəkil andı içərək Kollegiyaya qəbul olunub. Namizədlər arasında "Atəşgah" Sığorta Şirkətinin Baş Hüquqşunası Aydan Babayeva da yer alıb.

Həmkarımızı bu uğuru münasibəti ilə təbrik edir və gələcək işlərində müvəffəqiyyətlər arzulayırıq!

# Maraqlı faktlar



**İspanya** xalqı yeni ilin ilk 12 saniyəsində 12 üzüm kəsmək ənənəsini davam etdirirlər. Üzümlər ilin hər ayını təmsil edir.
Şayiələrə görə, bütün bunlar qışda daha çox üzüm satmaq istəyən şərabçılar üçün marketinq taktikası kimi başlayıb.



**Yaponiyada** bir çox Buddist məbədləri Yeni il gecəsi gecə yarıs zənglərini 108 dəfə çalır.
108 rəqəmi Buddizmdə müqəddəs sayılır və insan əzab-əziyyətinə səbəb olan 108 arzunu təmsil edir.



**Belarusiyada** Yeni il şənliyinə girməzdən əvvəl ayaqqabının içərisinə pul qoymaq ənənəsi var.
Bunun gələcək ildə maliyyə rifahı gətirəcəyinə inanılır.



**Yunanıstanda** gecə yarısı yerdə nar sındırmaq ənənəsi var.
Səpələnən toxumların sayı yeni ildə gələcək firavanlıq və xoşbəxtliyi təmsil edir.



**Finlandiyada** hər yeni ildə ailə və dostlar ritual üçün tavada metal yandırmaq üçün toplaşırlar.
Finlər şam işığında metalın yaratdığı kölgələri yoxlayırlar, çünki bu formalar gələcəyi proqnozlaşdırmalıdır.

# “Atəşgah” Sığorta Qrupunun Himni

Biz, inama doğru,
Nurlu sabaha yol gedirik.
Və işığa doğru,
Xoş gələcəyə biz baxırıq.
Səadəti, məhəbbəti… səninlə bölüşdük!

*Nəqarət:*
Ürəyimiz bir atəş,
Birgə döyünür ürəyinlə
Qəlbimiz bir səs,
Birgə oxuyur qəlbinlə
Nəbzimiz, könlümüz, arzularımız səninlə
Gülümsə həmişə, Arxayın yaşa!

Biz, inama doğru
Nurlu sabaha yol gedirik
Və işığa doğru
Xoş gələcəyə biz baxırıq
Səadəti, məhəbbəti… səninlə bölüşdük!

*Nəqarət:*
Ürəyimiz bir atəş,
Birgə döyünür ürəyinlə
Qəlbimiz bir səs,
Birgə oxuyur qəlbinlə
Nəbzimiz, könlümüz, arzularımız səninlə
Gülümsə həmişə,
Arxayın yaşa!